# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Zati-alinizə və ailənizə möhkəm cansağlığı, ömür boyu xoşbəxtlik arzulayıram.

Zati-alinizin humanist, müdrik siyasəti sayəsində Azərbaycan Respublikası dünyada gündən-günə etibarını möhkəmləndirir.

Möhtərəm Prezident, fürsətdən istifadə edərək cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Türkiyə və Azərbaycan arasında böyük layihələrin reallaşmasını təmin etdiyinizə görə təşəkkürümü bildirirəm.

*Ən dərin hörmət və ehtiramla,*

***Şamil AYRIM,***
***Türkiyə Böyük Millət Məclisinin deputatı,***
***Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizə uzun ömür, möhkəm cansağlığı və bütün xeyirxah təşəbbüslərinizdə Uca Allahdan kömək diləyirəm.

Bütün dünyadan Sizin ünvanınıza gələn təbriklərə dərin hörmətlə qoşuluram, Sizə Rusiya müsəlmanlarının salamlarını və səmimi təbriklərini çatdırıram.

Sizin rəhbərliyinizlə qardaş Azərbaycanın siyasi və iqtisadi sahələrdə daimi inkişafını dərin sevinclə qeyd edirəm. Ölkənizin nüfuzu beynəlxalq aləmdə qat-qat möhkəmlənib, Azərbaycan dünya siyasətinin tanınmış mərkəzlərindən birinə çevrilib. Bu, Sizin çətin sınaqlarda qazandığınız qələbələr və müdrik xarici siyasət strategiyanız sayəsində mümkün olub. Sizin bütün xalqı vahid monolit qüvvəyə çevirən və müasir multikulturalizm nümunəsi olan siyasətinizi, Azərbaycandakı bütün millətlərə və konfessiyalara daimi qayğınızı yüksək qiymətləndirirəm.

Hörmətli İlham Heydər oğlu, doğum gününüz münasibətilə Uca Allaha dua edərək Sizə və bütün Azərbaycan xalqına firavanlıq, rifah, tükənməz enerji bəxş etməsini, xeyirxah işlərinizdə köməyiniz olmasını diləyirəm.

*Hörmətlə və xoş dualarla,*

***Müfti şeyx Ravil QAYNUTDİN,***
***Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri,***
***Rusiya Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü***

Azərbaycan.- 2022.- 31 dekabr.- S.20.